# Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR

**№ 410** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

# Azərbaycan Rəssamlıq Akademiyasının yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Rəssamlıq Akademiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Rəssamlıq Akademiyasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Rəssamlıq Akademiyasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Rəssamlıq Akademiyasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və*
*nk.gov.az saytında tanış ola bilərsiniz.*

Azərbaycan. - 2024.- 11 sentyabr (№ 197).- S.6.